F.M.ƏLİYEVA
*BDU-nun dosenti*

# AKADEMİK Ə.S.SUMBATZADƏ

Bakı Dövlət Universitetinin məzunları içərisində adını fəxrlə çəkdiyimiz alimlərdən biri də mərhum akademik Əlisöhbət Sumbat oğlu Sumbatzadədir (1907-1992)

Ə.S.Sumbatzadə 1926-1930-cu illərdə V.İ.Lenin adına Azərbaycan Dövlət Universitetinin Şərqşünaslıq fakültəsinin tarix-etnologiya şöbəsinin tələbəsi olmuş və buranı müvəffəqiyyətlə bitirdikdən sonra təhsilini Azərbaycan Dövlət Elmi-Tədqiqat İnstitutunun fəlsəfə bölməsinin aspiran-turasında davam etdirmişdir. Ə.S.Sumbatzadə Azərbaycan SSR-də fəlsəfə üzrə ixtisaslaşan ilk azərbaycanlıdır. Aspiranturanı bitirmək ona ali məktəblərdə dərs demək imtiyazı verirdi və odur ki, Azərbaycan SSR XKS-nin qərarı ilə 1931-ci ilin avqustunda Gəncə şəhərində –Zaqafqaziya Pambıqçılıq institutuna dialektik və tarixi materializm fənni üzrə müəllim təyin edilir. Beləliklə, S.Sumbatzadənin 1960-cı ilə qədər davam edən müəllimlik fəaliyyəti başlayır. 1939-cu ildən o müəllimliyi S.M.Kirov adına ADU-da davam etdirir. Əvvəlcə Qədim və Orta əsrlər kafedrasına müdir təyin edilir, 1954-cü ildə bu kafedranın ləğv edilərək ümumi tarix kafedrası ilə birləşdirildikdən sonra da müdirlik vəzifəsi ona tapşırılır. XX əsrin 50-ci illərinin sonunda Azərbacyan SSR EA sistemindən yüksək vəzifələr – vitse-prezident və eyni zamanda yaxın və orta şərq xalqları institutunun direktoru (1959-1963-cü illər) vəzfəsini tutan akademik Ə.S.Sumbatzadə 1959-cu ilin sonunda Ümumi tarix kafedrası müdirliyi vəzifəsinə keçirilən müsabiqədə iştirak etmir və odur ki, 6 fevral 1960-cı ildə əvəzsilik üzrə işlədiyinə görə universitetdə tutduğu vəzifəsindən azad edilir (5, s.1.)

Ə.S.Sumbatzadə müəllimliklə yanaşı elmi-tədqiqatla da məşğul olurdu və 1939-cu ilin sentyabrında SSRİ Elmlər Akademiyası Azərbaycan filialının Tarix, arxeologiya və etnoqrafiya institutunda kiçik elmi işçi vəzifəsinə qəbul edilir, lakin çox tezliklə – 1940-cı ilin iyunun 27-də öz xahişi ilə işdən azad edilir və yenidən ali məktəblərdə müəllimlik fəaliyyətini davam etdirir. Yalnız 1951-ci ilin oktyabrın 18-də Ə.S.Sumbatzadə yenidən Azərbaycan SSRİ Elmlər Akademiyasının Tarix və Fəlsəfə institutunda işləməyə başlayır. Beləliklə, Ə.S.Sumbatzadə 1950-ci illərdə universitetdə müəllimlik, həm də tarix institutuda elmi-tədqiqat işi ilə məşğul olmuşdur. (5, s.1)

Məlum olduğu kimi, Rusiya imperiyasında Azərbaycan adlı nə siyasi, nə də inzibati bir qurum vardı. Azərbaycan torpaqları quberniyalara bölünmüşdü və odur ki, XIX əsr və XX əsrin əvvələrində Azərbaycan iqtisadiyyatı üzrə əsərlər, külliyyatlar quberniyalar üzrə olurdu. Azərbaycan neft sənayesi üzrə materiallar ya Bakı nefti, ya da Rusiya nefti adı ilə verilirdi. Bununla da Azərbaycan adlı ölkənin varlığını elə bir tarix səhnəsindən silmək istəyirdilər. Bu, sözsüz ki, şüurlu sürətdə edilirdi. Azərbaycan Xalq Cümhuriyyətinin «Azərbaycan» adını beynəlxalq aləmə tanıtması tarixçilərin də vəzifəsini müəyyənləşdirdi. Ə.S.Sumbatzadə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq XIX əsr Azərbaycan iqtisadiyyatının arxiv və sənədli materilalar əsasında araşdırmış və beləliklə də tarixşünaslığımızda yeni bir elmi istiqamətin – XIX əsr Azərbaycan iqtisadiyyatının öyrənilməsinin əsasını qoymunşdur. Bu sahədə onun atdığı ilk addımlardan biri 1948-ci ilin dekabr 20-də SSRİ Elmlər Akademiyasının Tarix SSRİ Elmlər Akademiyasının Tarix İnstitutunda «XIX əsr Azərbaycan iqitsadi tarixinin tədqiqi təcrübəsi (1800-1970-ci illər)» adlı doktorluq işinin müvəffəqiyyətlə müdafiə etməsidir. (9, s.7). bu dissertsiya əsasında o, keçən əsrin 50-60-cı illərində XIX əsr Azərbaycan iqtisadiyyatı üzrə ilk fundamental monoqrafiyalar nəşr etdirir: 1958-ci ildə «Сельское хозяйство

Азербайджана в XX веке», 1964-cü ildə isə «Промышленность Азербайджана в XIX веке».

Akademik Ə.S.Sumbatzadə kapitalizm dövründə Azərbaycanın ictimai- iqtisadi inkişafı təmayyüllərinin müəyyənləşdirilməsində yeni bir istiqamət yaratmışdır. O, Azərbaycan iqtisadi və ictimai iqtisadi tarixinin tədqiqi sahəsində böyük işlər görmüşdür. Bu problemin öyrənilməsinin əsasını qoymaqla o, nəinki XIX əsr kənd təsərrüfatı və sənayesi tarixi üzrə kapital əsərlər yazmış, eyni zamanda öz elmi məktəbini yaratmışdır. 1957-ci ildə akademik Əlisöhbət Sumbatzadə Azərbaycan SSR İqtisad İnstitutnda Xalq Təsərrüfatı tarixi şöbəsini təşkil edir (6, s.3-4).

Akademik Əlisöhbət Sumbatzadə S.M.Kirov adına ADU-nun tarix fakültəsində «XIX əsr Azərbaycan iqtisadiyyatı problemləri» mövzusunda ixtisas kuru aparırdı. Məhz bu kursu dinləyən tələbələrdən bir çoxu öz elmi tədqiqatları üçün Azərbaycan iqtisadiyyatı tarixi problemlərini seçirlər. Onların elmi rəhbərləri də akademik Sumbatzadənin özü olurdu. Təxmini hesablamalara görə akademik Əlisöhbət Sumbatzadə 15-dən artıq doktorluq və 50-dən çox namizədlik işinin rəhbəri olmuşdur. (9, s.14): onların içərisində hal-hazırla univeristetdə çalışan «Slavyan xalqları tarixi» kafedrasının müdiri, tarix elmləri doktoru professor T.T.Vəliyevi, əvvəllər universitetdə işləmiş mərhum professor M.M.Musayevi, hal-hazırda Xəzər Universitetində çalışan Q.Əbdülsalamzadəni və başqalarını göstərmək olar.

1813-cü il Gülüstan və 1828-ci il Türkmənçay müqavilələrinə əsasən Şimali Azərbaycan Rusiyanın müstəmləkəsinə çevrilmişdi. İstər Rusiya imperiyası dövründə, istərsə də Böyük vətən müharibəsi başa çatan dövrə qədər Rusiyanın Azərbaycanı tutması, işğalı elə işğal adlanırdı. Azərbaycan da Rusiyanın müstəmləkəsi hesab olunurdu. Lakin 1944-cü ilin yayında tarixçilərin Moskva müşavirəsindən sonra bu siyasi problemə qiymət köklü surətdə dəyişdirilir. Məlum olduğu kimi çar Rusiyası müstəmləkələri olan bir ölkə idi və o bu müstəmləkələri əsasən işğal, qəsb yolu il əldə etmişdi, özü də oktyabra qədərki rus tarixşünaslığı bu tarixi həqiqəti inkar etmirdi. Oktyabr çevrilişindən sonra yaranan Sovet Rusiyası başqa ad altında olsa da çar Rusiyasının müstəmləkələrinin əksəriyyətini SSRİ adlı bir məmləkətdə birləşdirmişdi. Amma bir cəhəti qeyd etməliyik ki, İkinci dünya müharibəsinin ərəfəsi və gedişinin ilk dövrlərində Çar Rusiyasının işğalçılıq siyasəti pərdələnmirdi. Lakin 1944-cü ilin ortalarında sovet qoşunlarının Şərqi Avropa ölkələrinə daxil olmaları ilə müharibənin gedişində əsaslı dönüş baş verir. İndi Sovet hökuməti özünü o ölkələrin gözündə qaldırmaq üçün Çar Rusiyasının işğalçılıq siyasətinə haqq qazındırmaq xəttini götürür.

1944-cü ilin 29 may -8 iyun tarixində Moskvada ÜK(b)P MK-sı katiblərinin bilavasitə iştirakı ilə tarixçilərin müşavirəsi keçirilir. Müşavirəyə A.S.Çerbakov sədrlik edirdi. Amma bəzən Mərkəzi Komitə Katiblərindən Andreyev və Malinkov da bu müşavirədə iştirak edirdilər. Müharibənin gedişinin ən gərgin vaxtında Mərkəzi Komitə katiblərinin bu müşavirədə iştirakı rəsmi hakimiyyət dairələrinin müzakirəyə çıxarılan məsələyə nə dərəcədə əhəmiyyət verməsindən irəli gəlirdi. Müşavirəyə çıxarılan əsas məsələ Qazaxıstan torpaqlarının Rusiyaya könüllü birləşməsi və ya işğal olunması idi. Tarixçilərin müşavirəsi birmənalı olaraq aşağıdakı qərarı çıxarır: Çar Rusiyası heç bir ölkəni, heç bir dövləti işğal etməmişdir, əksinə o ölkələrin özləri Rusiyanın tərkibinə daxil olmuşdar, Rusiya ilə birləşmişlər (7, s.64-66). Guya bu hal həmin ölkələrin, xalqların tarixində müsbət bir rol oynamışdır. Müşavirənin qərarı belə olur: Rusiyanın tərkibinə daxil olmaq mütərəqqi bir haldır. Çünki bu həmin ölkələrin iqtisadi və mədəni tərəqqisinə gətirib çıxarmışdır. (7, s. 70). Bu yeni konsepsiya rəsmi dövlət konsepsiyası idi və sözsuz ki, Azərbaycan tarixsiləri üçün də qanuni qüvvəsinə malik idi. Sözsüz ki, Ə.S. Sumbatzadə öz tədqiqatlarında bu prinsipə əməl etməli idi. 1955-1956-cı illərdə

Azərbaycan SSRİ EA Tarix İnstitutu rus və Azərbaycan dillərində «Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticələri» adlı kitab nəşr etdirir. Bu əsər Şimali Azərbaycanın Rusiya tərəfindən işğalının başlanmasından 1917-ci ilin fevralına qədər olan problemalrinə həsr edilmişdir. Əsərin əsas fəsilləri Ə.S.Sumbatzadə tərəfindən yazılsa da Azərbaycanın Rusiyaya birləşdirilməsi və onun tarixi əhəmiyyətli bölməsi isə professor Q.Mehdiyev ilə birlikdə yazılmışdır. (4, s.288). Müəlliflər Şimali Azərbaycanın Rusiya ilə birləşdiriməsinin əsasən sülh yolu ilə getməsi, bunun üçün bütün daxili və xarici şərlərin olması, hətta o cümlədən Azərbaycanın geniş xalq küllələrini Rusiyaya, böyük rus xalqına qızqın məhəbbəti və hörməti sahəsində mümkün olmasını, onun iqtisadi və mədəni inkişafımızda müsbət rol oynadığını yazırdılar. Rus qoşunlarında «kiçik» müqavimət isə guya yerli əhali tərəfindən deyil, İran və Turkiyə agentləri tərəfindən törədilirdi. (4, s.31). Bu fikirlər, bu deyimlər sözsüz ki, kökündən yanlış idi, amma keçən əsrin 50-60-cı illərdə rəsmi ideologiya problemi belə qoyurdu. Azərbaycan tarixi üzrə ümumiləşdirici əsərlərin yazılması 20 əsrin 50-ci illərində təsadüf edir. 1956-cı ildə Azərbaycan SSRİ Tarix və Fəlsəfə İnstitutuna Azərbaycan tarixini ta qədim dövrlərdən XX əsrin 50-ci illərinə qədər olan dövrünü əhatə edən 3 cildlik akademik nəşrin hazırlanması tapşırılır. Bu məqsədlə yaradılan həm redaksiya, həm də müəlliflər sırasına Ə.S.Sumbatzadə də daxil edilir. 1958-1964-cü illərdə Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq Azərbaycan tarixinin 3 cildlik akademik nəşri çap edilir. Bu nəşr üzrə əsərlər əvvəlcə rus, sonra isə Azərbaycan dilində buraxılır. Azərbaycan tarixinin 3-cildlik akademik nəşrinin II cildinin fəsillərinin yazılmasında Ə.S.Sumbatzadə bilavasitə iştirak etməsə də onun tədqiqatlarında «Azərbaycanın Rusiyaya birləşdirilməsi» və «Azərbaycan iqtisadiyyatı XIX əsrin 30-40-cı illərində» fəsillərinin yazılmasında istifadə edilib. (2, IX).

Ə.S.Sumbatzadənin 3-cildlik Azərbaycan tarixinin I və II cildlərinin hazırlanmasında müəlliflər heyyətinə öz dəyərli məsləhətləri ilə böyük yardım etməsi II cildin «Girişində» xüsusilə qeyd olunmuşdur. (2, s.X).

Ə.S.Sumbazadənin tarixşünaslığımızdakı xidmətlərindən danışarkən şağıdakı məsələyə mütləq toxunmaq lazımdır. Məlum olduğu kimi RK(b)P-nin 1922-ci ilin martında keçirilən 10-cu qurultayında Azərbaycan öz ictimai -iqtisadi inkişafında geri qalmış bir ölkə kimi xaraktkerizə edilmişdir. İş o yerə gəlib çatmışdı ki, Gürcüstan və Ermənistan öz iqtisadi potensialına görə Azərbaycandan yüksəkdə sayılırdı. Halbuki XX əsrin əvvəllərində Bakı şəhəri dünyanın ən iri sənaye mərkəzlərindən biri idi. Şəxsiyyətə pərəstişin zərərli nəticələrinin aradan qaldırılması tarixçilərimizə öz fikirlərni bildirməyə imkan yaradır və Ə.S.Sumbatzadə 1969-cü ildə Bakıda keçirilən «Zaqavqaziyada kapitalizmin genezisi» üzrə siampoziumda «Azərbaycanda sənaye kapitalizmi» adlı məruzəsində Azərbaycanın Bakını çıxmaq şərti ilə öz ictimai-iqtisadi inkişafında Ermənistan və Gürcüstandan xeyli irəli getdiyi fikrini söyləyir. O, Azərbaycanın Rusiya iqtisadiyyatında yerini də müəyyənləşdirir: XX əsrin əvvəllərində Rusiya İmperiyası ərazisinin 0,4%-ni əhalisinin 1,4%-ni təşkil edən Azərbaycan İmepriyada istehsal olunan sənaye məhsullarının 5%-ni veririridi. Ə.S.Sumbatzadənin bu tezisi, bu fikri Sovet ictimai-iqtisadi fikrində böyük yenilik idi və bir çox qeyri-elmi əsassız ittihamların aradan qaldırılmasında müsbət rol oynadı. (10, s.20). daha gürcü və erməni tarixsiləri öz yerlərində otuzduruldular.

Akademik Ə.S.Sumbatzadə 1940-cı ildə müdafiə etdiyi «XIX əsr Azərbaycan iqtisadi tarixinin tədqiqatı təcrübəsi (1870-ci illər)» adlı doktorluq işində Azərbaycan tarixşünaslığında ilk dəfə olaraq feodalizmdən kapitalizmə keçid dövrunu müəyyənləşdirmişdir. XX əsrin 70-ci illəri. Ə.S.Sumbatzadənin bu tezisi tarixşünaslıqda vətəndaşlıq qazanır, belə ki, 1956-cı ildən sonra nəşr olunan əsərlərdə bu prinsip bir qayda olaraq

göslənilirdi. Akademik Ə.S.Sumbatzadə Azərbaycan xalqının etnognezi məsələsi ilə də məşğul olmuşdur. Azərabycan tarixinin 3 cildlik akademik nəşrinin 1-ci cildində etnogenez probleminə həsr edilmiş materiallarının müəllifləri sırasında biz Ə.S.Sumbatzadənin də adına rast gəlirik. Birinci cilddə irəli sürülən konsepsiyaya görə Azərbaycan xalqının təşəkkülündə əsas yeri Atropatena və Qafqaz Albaniyasında məskunlaşmış tayfa və xalqlar- mannalar, kaspilər, midiyalılar, azərilər, albanlar və b. oynamışlar. Özü də onların danışıq dili İran və Qafqaz dilləridir. Azərbaycanın şimalında yerli əhali arran, cənubunda isə azəri dilində danışırmışlar. Amma 3-4-cü və xüsusidə XX-XII əsrlərdə türkdilli xalqların Azərbaycana axışıb gəlməsi ilə yerli əhali gəlmələrin dilini – türk dilini qəbul etməli olmuşlar. Beləliklə, XX əsrin 50-ci illərində Azərbaycan xalqının İran-Qafqaz mənşəli olması konsepsiyası tarixşünaslığımıza gətirilir. (1, s.171). Lakin bu konsepsiya Azərbaycan tarixşünaslığında birmənalı şəkildə vətəndaşlıq qazana bilmədi, çünki köklü sürətdə yanlış idi (3, səh. 157). Amma akademik Əlisöhəbət Sumbatzadə Azərbaycan xalqının etnogenizi məsələsində öz mövqeyini dəyişdirmir. Biz bunu onun 1990-cı ildə nəşr etdirdiyi «Азербайджанцы- этногенезис и формирование народа» adlı monoqrafiyasında görürük. Qəribə olsa da bu monoqrafiya Səməd Vurğunun xatirəsinə həsr edilmişdir. Sumbatzadəyə görə Azərbaycan xalqının formalaşmasında soykökündə türk tayfa və qurumları əsas rol oynamamışlar. Türk dili, yerli dil deyil, gəlmə türkdilli xalqların dilidir. (8, s. 145). Akademik Ə.S.Sumbatzadə dərslik və dərs vəsaitlərinin hazırlanmasında da iştirak etmişdir. XX əsrin 50-ci illərində ali məktəb tələbələri üçün Azərbaycan dilində dərsliklər yox idi. Odur ki, bu sahədəki boşluğu doldurmaq üçün atılan addımlar xüsusi qeyd olunmalıdır. Ə.S.Sumbatzadə Universitetinin ümumi tarix kafedrasının professoru Ə.M.Şahmalıyev ilə birlkdə Azərbaycan dilində «XI-XVII əsrlər Fransa tarixinə dair oçerklər» adlı 112 səhifəlik dərslik hazırlayır. Dərslik 1956-cı ildə universitetin nəşriyyatında çap edilmişdir. Azərbaycan tarixi üzrə ilk məktəb dərsliklərinin yazılmasında da Sumbatzadə fəal işitrak etmişdir. O, akademiklərdən S.A.Hüseynov və Z.İ.İbrahimov ilə birlikdə 1960-cı ildə «Azərbaycan tarixi» (orta məktəblər üçün dərs vəsaiti) adlı 279 səh. Həcmində dərslik çap etdirmişlər.

### *ƏDƏBİYYAT:*

1. Azərbaycan tarixi. 3 cilddə, 1 cild, B., 1961.
2. Azərbaycan tarixi. 3 cilddə, 2 cild, B., 1964.
3. Azərbaycan tarixi. Bakı, 1996.
4. Azərbaycanın Rusiya ilə birləşdirilməsi və onun mütərəqqi iqtisadi və mədəni nəticləri. B., 1956
5. Bakı Dövlət Univeristetinin arxivi, fond 1, siyahı 28, bağlama 7, iş vahidi 122.
6. Muradov Ş.M, Kərimov X.S. XX əsr Azərbacyan iqtisadi tarix elminin görkəmli nümayəndəsi: akademik Əlisöhbət Sumbat oğlu Sumbatzadə (1997-1992). Jurnal: Azərbaycan Milli Elmlər Akademiyasının xəbərləri Humanitar və İctimai Elmlər Seriyası (İqtisadiyyat), 2007, №1.
7. Письмо А.М.Панкратовой. «Вопросы истории» журналы, 1988, №11
8. Сумбатзаде А.С. – азербайджанцы, этногенез и формирование народа. Б., 1990
9. Сумбатзадя Я.С. – Библиографийа, Бакы, 1979.
10. Сумбатзадя А.С. Промышленный капитализм в Азербайджане. В книге генезис капитализма в Закавказье. Б., 1969.

# АКАДЕМИК А.С.СУМБАТЗАДЕ
# (1907-1992)

Одним из известных представителей азербайджанкой исторической науки является выпускник историко-этнологического отделения восточного факультета Бакинского государственного университета академик Алисохбат Сумбат оглу Сумбатзаде.

Трудовую деятельность А.С.Сумбатзаде начал с преподаванием высших учебных заведений и в 1941-1960-х гг. с перерывами читал лекции. Длительное время был заведующим кафедрой всеобщей истории Бакинского государственного университета.

А.С.Сумбатзаде в азербайджанской историографии известен как один из первых исследователей социально-экономической истории Азербайджана в ХЫХ начало ХХ вв. и основателем школы экономической истории Азербайджана.

## ACADEMİC A.S.SUMBATZADEH

One of the representatives of azerbaijan historical science is the graduatinq student of history – etnology departament of oriental faculty in Baku State university academic Alisokhbet Sumbatzadeh beginning as the teacher in academy schoools, also duration of 1941-1960 year off And on keer rading lecture, was the head of the chair General Nistory in University.

Academik Sumbatzadeh A.S.is the famous as the one of the first investigator in the field of social-economy history of Azerbaican in XIX-beginning And XX century and also founder of the investigation school of economy history of Azerbaijan.

***Rəyçilər: dos.A.Ə.Rzayev, t.e.d.R.C.Süleymanov.***

***BDU-nun Tarix fakültəsinin «Azərbaycan tarixi» (humanitar fakültələr üzrə) kafedrasının 20 may 2010-cu il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №08).***